# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

"Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin çoxlu sayda insanın həlak olması ilə nəticələnən faciəvi qəzası barədə xəbəri dərin hüznlə qarşıladım. Əminəm ki, bu dəhşətli hadisəyə səbəb olan bütün hallar hərtərəfli araşdırılacaq.

Bu kədərli məqamda yaxınlarını itirənlərə və bütün Azərbaycan xalqına Çex Respublikasının vətəndaşları adından və şəxsən öz adımdan dərin hüznlə başsağlığı verirəm.

*Hörmətlə,*

***Petr PAVEL,***
***Çex Respublikasının Prezidenti***

❖ ❖ ❖

Əziz İlham Heydər oğlu!

AZAL aviaşirkətinə məxsus sərnişin təyyarəsinin Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğraması nəticəsində insanların faciəvi şəkildə həlak olması xəbərini Belarus Respublikasında dərin hüzn və kədərlə qarşıladılar.

Belaruslular Azərbaycan xalqına üz vermiş fəlakətin ağrı-acısını və əvəzolunmaz itkinin kədərini bölüşürlər.

Hörmətli İlham Heydər oğlu, belə bir ağır vaxtda Sizə, həlak olanların doğmalarına və yaxınlarına səmimi dəstək sözlərimi qəbul etməyinizi xahiş edir, xəsarət alanlara isə tezliklə sağalmalarını arzulayıram.

*Hörmətlə,*

***Aleksandr LUKAŞENKO,***
***Belarus Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Aktau şəhəri yaxınlığında baş verən faciəvi təyyarə qəzası nəticəsində çox sayda insanın həlak olması və yaralanması barədə xəbəri dərin hüznlə qarşıladıq.

İcazə verin, bu faciəvi hadisə ilə əlaqədar Körfəz Əməkdaşlıq Şurası adından Azərbaycan hökumətinə və xalqına, o cümlədən həlak olanların ailələrinə dərin hüznlə başsağlığı verim.

Biz bu ağır günlərdə Azərbaycan hökumətinin və xalqının yanındayıq, yaralananların tezliklə sağalmalarını diləyirik. Azərbaycana davamlı sülh və əmin-amanlıq arzulayırıq.

*Hörmətlə,*

***Casim Məhəmməd əl-BUDEYVİ,***
***Körfəz Əməkdaşlıq Şurasının Baş katibi***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

"Azərbaycan Hava Yolları" aviaşirkətinə məxsus təyyarənin Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğraması nəticəsində baş verən faciə ilə əlaqədar peterburqlular adından həlak olanların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verirəm. Onlara bu əvəzolunmaz itkinin ağrı-acısının öhdəsindən gəlmək üçün mənəvi güc, mətanət və dözüm arzulayır, bütün yaralananlara tezliklə şəfa tapmalarını diləyirəm.

Bu ağır günlərdə dost Azərbaycan xalqının dərdinə şərik olur və dəstəyimi ifadə edirəm.

*Hörmətlə,*

***Aleksandr BEQLOV,***
***Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinin qubernatoru***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Qazaxıstanın Aktau şəhəri yaxınlığında təyyarə qəzası nəticəsində Azərbaycan vətəndaşlarının həlak olması ilə əlaqədar Rusiyanın yevangelist xristianlar ittifaqı adından və şəxsən öz adımdan ən dərin hüznlə başsağlığımı ifadə edirəm.

Biz dindarlar belə ağır məqamlarda birliyin və dualarla dəstək verilməsinin vacibliyini daha çox anlayırıq. Həlak olanların yaxınları və xəsarət alanlar üçün kilsələrimizdə və evlərimizdə dualar edirik. Uca Yaradan həyatını itirənlərin ailələrinə səbir, yaralananlara şəfa versin.

Sizinlə birlikdə kədərlənirik, dualarımız xalqınızladır.

Tanrı şəfaya, köməyə, qayğıya və təsəlliyə ehtiyacı olan hər kəsin yanında olsun!

*Hörmətlə,*

***Sergey RYAXOVSKİ,***
***Rusiya Federasiyasının baş yepiskopu, Rusiya Federasiyası İctimai Palatasının üzvü, Rusiya Prezidenti yanında Dini Birliklərlə Qarşılıqlı Fəaliyyət Şurasının üzvü***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Dekabrın 25-də baş verən təyyarə qəzası ilə əlaqədar Sizə, həlak olanların doğmalarına və yaxınlarına, bütün Azərbaycan xalqına Ukrayna müsəlmanları, Ukrayna Müsəlmanları Ruhani İdarəsinin kollektivi adından və şəxsən öz adımdan dərin hüznlə başsağlığı verirəm.

Uca Yaradandan yaralıların tezliklə sağalmalarını diləyirik. Allah ölənlərə rəhmət eləsin, doğmalarına və yaxınlarına səbir versin.

Tanrı ölkələrimizə sülh, firavanlıq və rifah nəsib etsin.

*Hörmətlə,*

***Şeyx Əhməd TƏMİM,***
***Ukrayna Müsəlmanları Ruhani İdarəsinin sədri, Ukraynanın ali müftisi***

❖ ❖ ❖

Zati-aliləri!

"Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğraması ilə bağlı xəbər bizi dərindən kədərləndirdi və sarsıtdı. Bu qəza nəticəsində həyatını itirən insanlara görə kədərimizi ifadə edirik.

Belə bir çətin dövrdə bizim düşüncələrimiz və dualarımız həlak olanların ailələrinin və Azərbaycan xalqının yanındadır. Qəza zamanı yaralananların tezliklə sağalmalarını diləyirik.

Azərbaycana istənilən dəstəyi göstərməyə hazır olduğumuza əmin olmağınızı xahiş edirəm.

*Hörmətlə,*

***Roland PRAYS,***
***Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Dekabrın 25-də "Azərbaycan Hava Yolları"na məxsus təyyarənin Qazaxıstanda qəzaya uğraması nəticəsində həlak olanların yaxınlarına və doğmalarına dərin hüznlə başsağlığı verirəm.

Bu ağır itkinin kədərini bölüşürəm, yaralananların tezliklə sağalmalarını arzulayıram.

*Hörmətlə,*

***Mais MƏMMƏDOV,***
***Rusiyanın Novosibirsk vilayəti Qanunvericilik Məclisinin sədr müavini***

Azərbaycan.-2024.- 30 dekabr (№ 290).- S.3.